*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 noyabr 2019-cu il № 86 (2403) Qiyməti 30 qəpik


*Ön xətdə disput*

## Qarabağ Azərbaycandır!



*Böyük Füzulimizin "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz" misrasını xatırlayıram, bir daha əmin oluram ki, kəlam - hikmətdir... Tarixi şəxsiyyətlərin dedikləri kəlam kimi eşidilir, kəlam kimi dərk olunur, kəlam kimi düşündürür, kəlam kimi yaşadılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı belə kəlamlardandır. Müdrikliklə deyilmiş bu kəlam Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsiylə bağlı dövlətin birmənalı, qəti münasibətinin ifadəsidir, xalqın iradəsinin bəyanatıdır, tarixi silkələyən bəyanatdır...*

"Qarabağ Azərbaycandır!" milli-xəlqi ruhdan gələn bəyanatdır, Azərbaycanın min illik dövlətçilik tarixinin tarixi bəyanatıdır...

Ön xətdə xidmət edən, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgəri bu qüdrətli tarixi bəyanatı torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın verəcəyi döyüş əmrinə hazırlıq əmri bilir. Bu bəyanatla bağlı hərbi hissənin əsgərləriylə fikir mübadiləsi aparmaq niyyətimizi zabit Elşad Əbilov da təqdir edir. Bunu disputun rəsmi başlanğıcı bilirik....

Disput ümumi bir rəylə yekunlaşan fikir mübadiləsidi. Həmin rəy üçün müxtəlif fikirlər eşidiləcək...

Hərbi hissənin zabiti Həşim Həşimov Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası haqqında müfəssəl informativ məlumat verərək bildirir ki, toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, münaqişənin sülh yolu ilə həlli istiqamətində görülən tədbirlər, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin hələ də yerinə yetirilmədiyi haqqında zəruri xatırlatmalar fonunda qətiyyətli çıxışı Azərbaycan dövlətinin münaqişənin sülh yolu ilə həll edilməsi istəyini ifadə etməklə, işğalçı Ermənistana, eləcə də münaqişəyə loyal, birtərəfli münasibəti olan dövlətlərə kifayət qədər qəti bir bəyanatla tamamlandı: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!".

Zabitin sözlərinə qüvvət olaraq deyirəm ki, plenar sessiyada bu bəyanatın məzmunu, mahiyyəti həm də "Azərbaycanın bir hissəsi də bütöv deməkdir, müstəqil Azərbaycanın hər qarış torpağı da toxunulmazdır, heç bir tarixi, hüquqi əsası olmayan bu münaqişə Azərbaycanın ərazi bütövlüyü saxlanılmaqla həll edilməlidir!", - kimi anlaşıldı.

Zabitlər də, əsgərlər də səmimi müdaxiləni disputun axarını müəyyənləşdirən fikir kimi qəbul edir.

Zabit İlqar Quliyev deyir:

- Belə bəyanatlar həmişə real gücə əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" fikrinə istinadən deyə bilərəm ki, dünyanın ən güclü orduları sırasında olan ordumuz bu bəyanatın məzmununda duyulan gücdür, ona görə bu bəyanata torpaqlarımızı işğaldan azad etməyə qadirliyin bəyanatı da deyə bilərik.

Zabit Həşim Həşimov zabit İlqar Quliyevin dediklərinə zəruri əlavə edir:

- Həm real güc, həm də nüfuz.

Zabit Həşim Həşimov Azərbaycan Respublikası Prezidentinin bir kəlamını da xatırladaraq deyir ki, bu bəyanat "Azərbaycan dövləti, Azərbaycan xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək" bəyanatının məntiqi davamıdır.

- Müxtəlif vaxtlarda deyilsə də, hər iki bəyanat böyük tarixi şəxsiyyət, dövlətçilik fenomeni ilə dünyanın heyrət ünvanlarından olan Heydər Əliyevin siyasi kursuna, dövlətə, dövlətçiliyə sədaqətin təzahürüdür, - deyirəm.

Deyilənləri böyük maraqla dinləyən əsgərlərin düşüncələrində qibtəedilési bir tərpəniş yaranıb.

- Bu bəyanatın mahiyyətini tərəddüd etmədən dövlətsevərlik manifesti bilirəm. Əsgər yoldaşlarımın dünyagörüşünə bələd olduğuma görə əminliklə deyirəm ki, onlar da belə düşünür (Gəncə Aqrar Universitetinin məzunu əsgər Sadiq Bayramov).

- Hərbi xidmət bizim Vətən sevgimizi daha da artırıb, dönməzləşdirib. Mülki həyatdan fərqli olaraq hərbi xidmətdə bu və ya digər hadisəyə Vətənə "bir köynək yaxınlar" kimi baxırıq. Vətənlə bağlı hadisələrə daha məntiqli düşüncələrlə baxırıq. Bu bəyanat məhz belə bəyanatdır. Hər birimizin həm də Sadiqin manifest adlandırdığı bəyanatdır (əsgər Elfan Məmmədov).

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qarabağ Azərbaycandır!" bəyanatını döyüşə hazırolma əmri bilirik. Düşmən işğal etdiyi torpaqlarımızdan çəkilib getməsə, Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq (əsgər Vüqar Əkbərov).

- Bu bəyanat Ali Baş Komandanın Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş paradda dediklərinin bəyanatıdır. (Mingəçevir Dövlət Universitetinin məzunu əsgər Sədi Süleymanov).

Baxışlarım deyilənlərdən qürurlanan əsgərlərin baxışlarına sarılır. Bu biçim doğma, mehirli sarılmada bir ehtiram var, inam var, güvənc var. Mənə elə gəlir ki, bu anlarda mənim heysiyyətli baxışlarım ictimaiyyətin ərkli baxışlarının soraqçısıdı. Baxışlarım baxışlarına sarılan əsgərlərin "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatını qətiyyətlə dünya ictimaiyyətinə xatırladan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmriylə qələbə qazanacağına ictimaiyyətin bir nümayəndəsi kimi mən də əminəm və özümə hesabatım kimi deyirəm ki, mən dövlətə, dövlətçiliyə sədaqətin və bu əminliyin jurnalistiyəm.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Türkiyənin yüksək səviyyəli hərbi nümayəndə heyəti ilə görüşüb

*Noyabrın 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Baş Qərargahının ikinci rəisi korgeneral Metin Gürakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkələrimiz arasında münasibətlərin dostluq və qarşılıqlı inam üzərində qurulduğunu xatırladan Müdafiə naziri bildirib ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığı genişləndirir və bu bölgədəki sabitliyi təmin edən əsas amillərdəndir.

Türkiyə xalqının rifahı uğrunda terrorçuluqla mübarizədə şəhid olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyən Müdafiə naziri separatizmə qarşı mübarizə aparan ölkə olaraq Azərbaycanın Türkiyəni tam dəstəklədiyini diqqətə çatdırıb.

Müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın ikitərəfli əsasda və NATO tərəfindən həyata keçirilən proqramlar çərçivəsində aparıldığını qeyd edib. Nazir, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının daim inkişaf etdiyini xüsusi vurğulayıb.

Korgeneral M.Gürak da öz növbəsində ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrindən, o cümlədən səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Qonaq Azərbaycan və Türkiyə hərbçilərinin Bakıda növbəti görüşünün təşkilinə görə general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirib.

Ölkələrimizin yerləşdiyi regionda baş verən son hadisələrin müzakirə olunduğu görüşdə Azərbaycan-Türkiyə ikitərəfli formatında, həmçinin Pakistan, Gürcüstan, eləcə də türkdilli dövlətlərin müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir



Noyabrın 5-də Bakıda Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası işinə başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayəndə heyətlərinin geniş tərkibdə iştirak etdikləri iclasda həmsədrlərin açılış nitqləri səsləndirilib və regional təhlükəsizlik mühitinin vəziyyətinə dair brifinqlər təqdim olunub. Sonra iclas yardımçı işçi qruplarda davam edib.

Noyabrın 7-dək davam edəcək iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müzakirə ediləcək, eləcə də 2020-ci il üçün fəaliyyət planı razılaşdırılacaq.

Qeyd edək ki, iclasın Azərbaycan tərəfdən həmsədri Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfdən isə Baş Qərargahın ikinci rəisi korgeneral Metin Gürakdır.

# Müdafiə Nazirliyinin nümayəndələri Moskvada hərbi-musiqi festivalında iştirak edirlər

*Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi orkestri, eləcə də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının solistləri ölkəmizi Moskva şəhərində keçirilən "Katyuşa" hərbi-musiqi festivalında təmsil edirlər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Böyük Vətən Müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş XIV festival çərçivəsində təşkil olunan "Yaşasın Qələbə!" müsabiqəsinin şərtlərinə uyğun olaraq hər komanda hərbi vətənpərvərlik mahnıları, marşlar ifa edəcəklər.

Festivalın final mərhələsi noyabrın 8-də keçiriləcək.

# Qarabağ Azərbaycandır!



(Əvvəli 1-ci səhifədə)

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistana, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində qətiyyətli, birmənalı mövqeyi olmayan dövlətlərə ünvanladığı bəyanat hər birimizin nəinki əzbərindədir - "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi", həm də düşüncələrindədir - bəyanat hərbi qulluqçuların da, vətəndaşların da məsuliyyətini artırır, - əsgər Fariz Əkbərovun dedikləri mənə 1992-ci ilin yayında Yusif Mirzəyevin dediklərini xatırladır: "Aqillərin dediklərini ancaq yaddaşına yazanlardan düz-əməlli qətiyyət gözləmə, şair. Əsl qətiyyət kəlamları düşüncələrinə yazanlardadı...", mənə elə gəlir ki, disputda fəallıq göstərənlər də, onun gedişini maraqla, istəklə izləyənlər də kəlamları təkcə yaddaşına deyil, həm də düşüncələrinə yazır, onu hərbi xidmətinin, yaşam fəlsəfəsinin tərkib hissəsinə çevirəcəklər...

- Azərbaycan dövlətçiliyi baxımından son dərəcə dəyərli olan bu bəyanat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Ermənistanın dirənişinə, status-kvonu saxlamaq niyyətinə qarşı sonun başlanğıcı kimi anlaşılır, dərk edilir. Bu bəyanatın sizin mənəvi-psixoloji hazırlığınıza əhəmiyyətli təsiri olacağına əminəm. Bəyanat döyüş hazırlığınıza necə təsir göstərəcək?, - soruşuram.

Əsgər Səlim Əzizov deyir ki, dövlət başçımızın kəlamlarının tələblərini həmişə hərbi xidmətimizin tərkib hissəsi bilmişik.

Bir anlığa duruxur. Mənə elə gəlir ki, dar macalda deyəcəklərinin səmimi qəbul edilib-edilməyəcəyini düşünür. Cavabı ləngitməyi əsgər adına yaraşdırmır:

- Əsgər Sədi Süleymanovun dediklərini hər birimizin fikri bilin, Səlim bizdən heç nə soruşmadan bizim də fikrimizi ifadə etdi: Bu bəyanatı hər birimiz torpaqlarımızı işğaldan azad edəcək döyüşlərə hazırolma əmri bilirik. Yəni, bu bəyanat döyüş hazırlığımızı daha da yüksəltməyə qadir olan əlavə stimuldur...

Zabit Həşim Həşimovun gülümsünməsini əsgər Səlim Əzizovun düşüncələrindən məmnunluq bilirəm. Disputun gedişində bu bəyanata ən böyük azərbaycanlının siyasi kursunu davam etdirən ən böyük azərbaycançılıq sənədi demişdik. Onun əsgərin düşüncəsində inikası, milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan Azərbaycan əsgərinin işıqlı düşüncələri ürəyimizi dağa döndərir. Zabit deyir ki, əsgərin dünyadumyumu bizə də xoş təsir bağışladı. "Bu əsgərin düşüncələrinin timsalında bütün əsgərlərin işıqlı düşüncələri könlümüzə yatır. Onların adından əminliklə deyirəm ki, bu bəyanat ordu quruculuğuna da böyük təsir göstərəcək, həm döyüş, həm də mənəvi-psixoloji hazırlıqda əhəmiyyətli olacaq".

Disput fikir mübadiləsidi; fikir mübadiləsi nəticə etibarilə ümumi bir fikirlə yekunlaşır. "Qarabağ Azərbaycandır!" mövzusunda disputda əsgərlərin ümumiləşdirici fikri belə ifadə edilməlidi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı Ermənistana ünvanlanan ciddi xəbərdarlıqdır: BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilməsə - Ermənistan işğal etdiyi ərazilərdən geri çəkilməsə, Azərbaycan torpaqlarını döyüşlə azad edəcək...

Ermənistan "Valday"ın tribunasından eşitdiyi kəskin dövlətçilik bəyanatını unutmamalıdır...

Ön xətdə "N" hərbi hissəsində "Qarabağ Azərbaycandır!" mövzusunda disput Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatının mahiyyətinin dərkini, bu bəyanatın mahiyyətinin hərbi xidmətin tərkib hissəsi kimi anlaşılmasını təmin edir...

Disputu əsgərlərimizin bu və ya digər mövzuda məntiqli, düşündürücü fikirsöyləmə qabiliyyətinin də inkişafına vəsilə bilirik. Bu möhtəşəm bəyanat tarixə diktə edir ki, Azərbaycanın dövlətçilik tarixi ərazi bütövlüyüylə əbədiyyətin cığırdaşı olacaq!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Əlahiddə Ümumqoşun Orduda müvafiq vəzifələrə təyin edilən gənc zabitlərlə növbəti təlim-metodiki toplantı keçirilib



*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bu il bitirən, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətinə davam edən zabitlərlə növbəti təlim-metodiki toplantı keçirilib. Əlahiddə Ümumqoşun Orduda keçirilən toplantıda kəşfiyyat hazırlığından maneələr zolağının dəf edilməsi, taktiki hazırlıqdan tanklarla mübarizə qaydaları və psixoloji zolağın dəf edilməsi, manqanın döyüş atışının təşkili, hazırlanması və keçirilməsi metodikası praktiki yerinə yetirilib.*

Təlim-metodiki toplantı yekun tədbiri ilə başa çatıb. Tədbiri Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev açıq elan edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantının yekun tədbirində çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini - qərargah rəisi general-mayor Fazil Ağalarov bildirib ki, əsas məqsəd zabitlərin ixtisas hazırlığı üzrə peşəkarlıqlarının artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi və fiziki hazırlıqlarının yüksəldilməsi olub. Toplantı çərçivəsində müxtəlif fənlər üzrə məşğələlər praktiki üsulla keçirilib və zabitlərdən məqbullar götürülüb.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev vurğulayıb ki, "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, müxtəlif kateqoriyalı hərbi qulluqçularla keçirilən təlim toplantıları hər zaman əli tətikdə, gözü hədəfdə olan hər bir hərbi qulluqçunun ən çətin döyüş tapşırığını vaxtında və dəqiq yerinə yetirməsində mühüm rol oynayır. Növbəti toplantının da uğurla başa çatması bir daha göstərdi ki, Əlahiddə Ümumqoşun Orduda xidmət edən zabitlərin hər birinin mənəvi-psixoloji dayanıqlığı və bölmələri idarəetmə bacarıqları yüksək səviyyədədir. Bütün bunlara da yaradılan hərtərəfli şərait və sərf edilən gərgin əmək nəticəsində nail olunub.



Sonda Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev gənc zabitlərə xidmətlərində uğurlar arzulayaraq toplantıya yekun vurub.

# Raket və artilleriya bölmələri döyüş atışları icra edib

*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq, təlim mərkəzləri və poliqonlarda minaatan, artilleriya, reaktiv və tank əleyhinə batareyalarla döyüş şəraitinə maksimal yaxın şəraitdə döyüş atışlı taktiki təlim keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlər zamanı kəşfiyyat bölmələri, PUA və digər bölmələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə döyüş uzlaşması tədbirləri icra olunub.

Bölmələr şərti düşmənin müdafiəsinin dərinliyində yerləşən hədəflərə zərbələr endirməklə qarşıya qoyulan məqsədlərə nail olublar.

# Dövlət Bayrağı Günü münasibətilə "Açıq qapı" günü və andiçmə mərasimi keçiriləcək

*Noyabrın 9-da Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan Ordusunun tabeçiliyində olan hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi təşkil olunacaq.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, həmin gün əsgər yaxınları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkəcəklər.

"Açıq qapı" günü çərçivəsində hərbi hissələrin komandanlığının valideynlərlə görüşləri keçiriləcək, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, Dövlət Bayrağı Günü münasibətilə konsert proqramları və digər mədəni-kütləvi tədbirlər təşkil olunacaq.

# Azərbaycanlı şəhidin Ukraynada yaşayan ailəsinə birdəfəlik ödəmənin sənədi təqdim olunub

Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsinin icrası ilə əlaqədar ölkəmizin Ukraynadakı səfirliyində görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, 1991-ci ildə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş Füzuli Rayon Polis Şöbəsinin sabiq əməkdaşı Muxtar Hədisovun Nikolayev şəhərində yaşayan həyat yoldaşı Mövludə Hədisova ilə görüş zamanı səfirliyin əməkdaşları ona birdəfəlik ödəməni təsdiqləyən sənədi təqdim ediblər.

Göstərdikləri maddi və mənəvi dəstəyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirən şəhidin həyat yoldaşı M.Hədisova qeyd edib ki, onlar Azərbaycan dövlətinin dəstəyini daim hiss edirlər. Dövlətin şəhid ailələrinə qayğısı davamlı və çoxşaxəli səciyyə daşıyır. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır.

# "İran parlamenti Azərbaycan ilə əlaqələrin genişlənməsi üçün heç bir məhdudiyyət görmür"

İran parlamenti Azərbaycan ilə dostluq və qardaşlıq əlaqələrinin daha da genişləndirilməsi üçün heç bir məhdudiyyət görmür.

AZƏRTAC xəbər verir ki, bu sözləri İran İslam Şurası Məclisinin (parlament) sədri Əli Laricani deyib. O bildirib ki, İran və Azərbaycan xalqları ortaq tarixə, dinə, milli-mənəvi dəyərlərə, adət-ənənələrə malikdirlər. Bu gün iki qonşu və dost dövlətin əlaqələrinin yüksək səviyyədə olması məmnunluq doğurur. Ölkələrimiz arasında iqtisadiyyat, sənaye, nəqliyyat, mədəniyyət və digər sahələrdə yaxşı əlaqələri var. Bu əlaqələrin inkişafı xalqların mənafeyini əks etdirir. İran parlamenti əlaqələrimizin inkişafı istiqamətində fəaliyyət göstərir.

Əli Laricani nəzərə çatdırıb ki, İran dövləti qonşuları ilə münasibətlərin daha da yaxınlaşmasında maraqlıdır. Azərbaycan da İranın yaxın qonşusudur və rəsmi şəxslərin intensiv əlaqələri münasibətlərin yaxınlaşmasını təmin edib.

İran parlamentinin sədri qeyd edib ki, parlamentdə fəaliyyət göstərən İran-Azərbaycan işçi qrupunun fəaliyyəti əlaqələrin yüksələn xətlə inkişafına töhfə verir.

# Altıncı Bayraq festivalına start verilib



*9 noyabr - Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən altıncı ənənəvi Bayraq festivalının açılışına həsr olunmuş təntənəli mərasim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə Gənclər və İdman Nazirliyinin rəhbərliyi, dövlət qurumlarının əməkdaşları, Müdafiə, Daxili İşlər, Fövqəlade Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, qeyri-hökumət, eləcə də gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Altıncı Bayraq festivalı ölkəmizin bütün bölgələrində olduğu kimi, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də keçirilir.

Azərbaycanın tarixi bayraqları, Azərbaycan Demokratik Respublikası hökumətinin 24 iyun 1918-ci il tarixli qərarına əsasən, Gəncədə qəbul edilmiş qırmızı fonda ağ aypara və səkkizguşəli ulduzun təsvir edildiyi al parçadan hazırlanmış Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı, həmçinin 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq təsdiq edilmiş, 1991-ci il fevralın 5-də isə Azərbaycan Respublikasının Ali Sovetinin qəbul etdiyi "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanuna əsasən Azərbaycan Respublikasının Dövlət bayrağı elan edilən müqəddəs bayrağımız hərbi qulluqçular tərəfindən salona gətirilib, Dövlət himni ifa edilib.



Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabrın "Dövlət Bayrağı günü" kimi qeyd edilməsi tarixinin əhəmiyyəti xüsusilə qeyd olunub.

Tədbirdə respublikanın incəsənət xadimləri ilə yanaşı, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblı, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin orkestri "Bayrağım - varlığım, bəxtiyarlığım" adlı ədəbi-musiqili-xoreoqrafik kompozisiya ilə çıxış edib və festival iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.



Yaşasaydı, Çingiz Qurbanovun bir neçə gündən sonra 25 yaşı tamam olacaqdı. Qəhrəmanlıqla şəhid oldu, ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Müdafiə nazirinin əmri ilə Azərbaycan Ordusunda ilk olaraq mövqeyə şəhid adı verildi: "Çingiz döyüş mövqeyi". Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun obrazı canlandırılan tədbirdə Vətən müdafiəçiləri vizual olaraq festival iştirakçılarını salamlayıblar.

Festivalın açılışına həsr olunmuş teatrlaşdırılmış mərasimin ssenari müəllifi və quruluşçu rejissoru Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanidir.

# ABŞ Dövlət Departamenti: Azərbaycan 2018-ci ildə terrorla mübarizədə fəal iştirak edib

*Dünya ölkələrinin terrorla mübarizədə gördüyü tədbirlər barədə hər il ABŞ Dövlət Departamenti tərəfindən dərc edilən hesabatda Azərbaycana da yer verilib. Ölkələrin keçənilki fəaliyyəti haqqında hesabatda qeyd olunur ki, 2018-ci ildə Azərbaycan terrorçuluqla mübarizədə fəal iştirak edib.*

Bildirilir ki, 2018-ci ildə Azərbaycan hökuməti ölkənin ərazisindən və dəniz sərhədlərindən, eləcə də bütün Cənubi Qafqazda insan, pul və material daşınması ilə məşğul olan terror qruplaşmalarının səylərinin qarşısının alınması üzərində fəal işləyib. Qeyd olunur ki, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları terror aktlarının qarşısının alınması üzrə əməliyyatlar keçirib, terrorçuluqda ittiham olunan şəxsləri, eləcə də ölkə xaricində terror qruplaşmalarının tərkibində döyüş əməliyyatlarında iştirak edənləri və onları maliyyələşdirən vətəndaşları həbs edərək, məsuliyyətə cəlb edib.

Hesabatda, həmçinin bildirilir ki, 2018-ci ildə Azərbaycanda terror aktı qeydə alınmayıb. Bundan əlavə, ötən il Azərbaycanda hüquq-mühafizə orqanlarının maliyyə transaksiyaları mexanizmləri üzərində nəzarət səlahiyyətlərini artıran düzəlişlər qəbul edilib. Azərbaycanda ölkəyə daxil olarkən terror və kriminal siyahıdan, həmçinin biometrik məlumatlardan istifadə edildiyi qeyd olunur. Bildirilir ki, Azərbaycanın hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri öz aralarında, eləcə də regional və beynəlxalq tərəfdaşlarla məlumat mübadiləsi aparır.

Hesabatda yazılıb ki, Azərbaycan Avropa Şurasının, ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq qurumların üzvüdür, NATO-nun antiterror təşəbbüslərini Alyansın "Sülh naminə tərəfdaşlıq" proqramının üzv ölkəsi qismində dəstəkləyir. Azərbaycan NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyası çərçivəsində bu ölkəyə 120 sülhməramlı hərbçisini göndərib və Əfqanıstan Milli Ordusunun Etimad Fonduna ianə verib. Sonda, 2018-ci ilin iyun ayında Azərbaycan Əfqanıstanda sülhü və təhlükəsizliyi təşviq etmək üçün Beynəlxalq Əlaqə Qrupunun konfransına ev sahibliyi edib.

# Tanınmış fransız tarixçi Ermənistanı faşizm ideyalarını yaşatmaqda ittiham edir

*Türkiyədə fəaliyyət göstərən Avrasiya Araşdırmalar Mərkəzinin (AVİM) saytında "Njdeizm Ermənistanda hələ də rəsmi olaraq yaşadılmaqdadır" sərlövhəli elmi məqalə yayılıb.*

AZƏRTAC xəbər verir ki, tanınmış fransız tarixçi Maksim Qauinin müəllifi olduğu məqalədə belə bir fikir yer alıb: 2019-cu ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Njde kimi faşistləri dəstəkləyənlərə saygı göstərdiyi üçün Nikol Paşinyanı ittiham edəndə, o, müqavimət göstərməyə çalışdısa da, özünü təkzib etdi.

Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət edən terrorçu Qaregin Ter-Arutyunyanın cinayət dolu həyat və fəaliyyəti barədə türkdilli oxuculara məlumat verən müəllif adıçəkilən cinayətkarın əməllərini təhlil edərək əsaslandırır ki, Njde təkcə faşistlərlə əməkdaşlıq edənlərdən deyil, həm də alman əsilli olmayanlar üçün faşist doktrinasının hazırlanmasında ən çox səy göstərənlərdən biri olub. Tədqiqatçı təəssüflə qeyd edir ki, faşistlərlə əməkdaşlıq edən tanınmış şəxslər arasında təkcə Njde dövlət qurumları (Ermənistan) tərəfindən "milli qəhrəman" kimi təqdim olunur.

Məqalədə faktlarla əsaslandırılır ki, Njdenin faşist düşüncələri 1998-2018 illərdə Ermənistanda dövlət ideologiyasına çevrilib. Buna qədər isə 1991-ci ildə Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan Yerevanın ən böyük ikinci meydanına və onun altında yerləşən metro stansiyasına Njdenin adını verib.

Qeyd edək ki, Maksim Qauin 1915-ci il hadisələrini ədalətli şəkildə araşdıran avropalı tədqiqatçılardan biri kimi erməni saxtakarlığının ifşa edilməsində böyük işlər görüb. Tədqiqatçının ifşaedici yazıları hər zaman Ermənistan hakimiyyətini və erməni millətçi dairələrini narahat edib.

# Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni ifa edilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, çıxış edənlər Dövlət Bayrağı Günü münasibətilə şəxsi heyəti təbrik edib, onlara çətin və şərəfli xidmətlərində uğurlar arzulayıblar. Azərbaycan dövlətinin və istiqlalımızın müqəddəs rəmzlərindən olan bayrağın milli kimliyimizin simvolu olduğunu qeyd edərək bayrağımızın işğal altındakı ərazilərimizdə dalğalanacağı günün uzaqda olmadığını və Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında buna nail olunacağına əminliklərini vurğulayıblar.

Kursantların ifasında bayrağımıza həsr olunmuş şeir və mahnılar, həmçinin səhnəciklər tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

## Hərbi hissədə növbəti seminar keçirilib

*Müdafiə Nazirliyi ilə Dövlət Təhlükəsizlik Xidmətinin birgə fəaliyyət planına uyğun olaraq hərbi hissələrdən birində növbəti seminar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Xarici xüsusi xidmət orqanlarının pozuculuq fəaliyyəti" və "Dini ekstremizmə qarşı mübarizə və informasiya təhlükəsizliyi" mövzularında keçirilən seminar hərbi qulluqçular tərəfindən maraqla qarşılanıb.

Çıxış edənlər belə seminarların şəxsi heyətin maarifləndirilməsi məqsədilə keçirildiyini hərbi qulluqçuların diqqətinə çatdırıb.

Sonda "Heç vaxt gec deyil" sənədli filmi nümayiş etdirilib.

## Əlahiddə Ümumqoşun Ordunun təlim mərkəzlərində orta məktəb şagirdləri praktiki məşğələlərə cəlb ediliblər

Məktəblilərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi və hərbi xidmətə düzgün istiqamətləndirilməsi məqsədi ilə Sədərək və Şərur rayonlarında fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri praktiki məşğələlərə cəlb ediliblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun təlim mərkəzlərində keçirilən məşğələlər zamanı müxtəlif atıcı silahların, snayper tüfənglərinin, minaatan qurğularının, tank əleyhinə vasitələrin, əl qumbaralarının taktiki-texniki xüsusiyyətləri haqqında və eləcə də tibbi hazırlıqdan şagirdlərə ətraflı məlumat verilib.

Sonra məktəblilər avtomat və pulemyotlardan praktiki atışları yerinə yetiriblər.



# Əfqanıstan səfiri H.Əliyev adına AAHM-də olub

*Əfqanıstan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenay Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, öncə qonaqlar məktəbin ərazisində ucaldılan xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.

Görüşdə ilk olaraq brifinq keçirilib, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yaranma tarixini və fəaliyyətini özündə əks etdirən qısametrajlı video-süjet təqdim edilib.



Sonda qonaq hərbi məktəbdə təhsil alan əfqan kursantları ilə görüşüb.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*5 noyabr 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Məzəm, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# ATƏT-in Baş katibi: Etimadın möhkəmlənməsi tədbirləri öz müsbət nəticələrini verməlidir

*Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Bratislavada keçiriləcək ATƏT-in Xarici İşlər Nazirləri Şurasında planlaşdırılan görüşünün Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə yeni dinamika verəcəyinə ümid edirik.*

AZƏRTAC xəbər verir ki, bu fikri ATƏT-in Baş katibi Tomas Qreminger Moskvada Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovla keçirdiyi görüşün yekunlarına dair mətbuat konfransında səsləndirib.

Baş katib ümidvar olduğunu bildirib ki, danışıqlar prosesinin iştirakçıları tezliklə etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə başlayacaqlar. O deyib: "Deyə bilərəm ki, danışıqlar prosesinin dinamikası yəqin ki, bir az zəifləyib. Bununla belə, biz ümidvarıq ki, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Bratislavada ATƏT-in Xarici İşlər Nazirləri Şurasında keçirilməsi planlaşdırılan görüşü bu prosesə yeni dinamika verəcək. Məmnunluqla qeyd edirik ki, hər iki tərəf təhlükəsizlik sahəsində sabit vəziyyəti qoruyub saxlayır. Bu, çox vacibdir, çünki təmas xəttinin hər iki tərəfində insanların həyatda qalması təmin olunmalıdır. Bu, həm hərbçilərə, həm də mülki əhaliyə aiddir. Təbii ki, etimadın möhkəmləndirilməsi üçün tədbirlər görülməlidir. Onlardan bir neçəsi, məsələn, Yerevan və Bakı arasında birbaşa əlaqənin yaradılması artıq həyata keçirilib. Bunların hamısı öz müsbət nəticələrini verməlidir. Bəzi məqamlar üzrə danışıqlarda irəliləyiş yoxdur. Girovların mübadiləsi və jurnalistlərin qarşılıqlı səfərləri bu qəbildəndir. Ümidvaram ki, biz tezliklə etimadın möhkəmlənməsi üzrə bu tədbirləri də reallaşdıra biləcəyik".

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında.**
**2. Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında.**
**3. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.**

**Mövzu:** Azərbaycan Respublikası Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında*

Azərbaycan Respublikasının Konstitusiyası - ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində - referendum yolu ilə qəbul edildi və 1995-ci il noyabrın 27-dən qüvvəyə mindi. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edildi.

Azərbaycan Respublikasının Konstitusiyasında dövlət hakimiyyəti haqqında aşağıdakı məqamlar açıqlanır:

- Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir;

- xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur;

- Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidiyi Azərbaycan dövlətinin təməlini təşkil edir.

- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir və 125 deputatdan ibarətdir. Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır.

Deputatların səlahiyyətləri Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının ilk iclas günü bitir. Milli Məclisin deputatlığından çıxanların yerinə seçkilər Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, keçirilmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı müddəalar açıqlanır:

- Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

- Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

- Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

- Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

- Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

- Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında*

Azərbaycan dövlətinin siyasi əsasları aşağıdakılardır:

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan dövlətinin iqtisadi əsasları aşağıdakılardır:

Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Mərkəzi Banka mənsubdur. Azərbaycan Respublikasının Mərkəzi Bankı dövlətin müstəsna mülkiyyətindədir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır.

### *Dövlət institutları arasında Azərbaycan Ordusunun rolu və yeri*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zəruri oldu. Bu həm də ölkəmizin erməni təcavüzünə qarşı mütəşəkkil şəkildə mübarizə aparması üçün lazım idi. Bir sözlə, Silahlı Qüvvələrin formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının Konstitusiyasında da Silahlı Qüvvələr və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapıb. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaratması, Silahlı Qüvvələrin isə Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət olması və Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilən qaydada hərbi xidmət keçməsi vurğulanır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan hərbi quruculuq prosesi ölkəmizdə bu gün də uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir.

Ölkəmizin təcavüzdən, silahlı hücumdan müdafiəsinin təmin edilməsi üçün Azərbaycan Ordusunda əsas diqqət qoşunların döyüşə hazırlıq və səfərbərlik tədbirlərinə yönəldilib. Müasir təhdidlərə, risklərə və çağırışlara cavab vermək məqsədilə qoşunların döyüş qabiliyyətinin artırılması istiqamətində hərtərəfli kompleks tədbirlər icra edilir. Kompleks şəkildə islahatların həyata keçirilməsi ordumuzun aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməsinə şərait yaradıb.

İl ərzində ikitərəfli əməkdaşlıq planları və "Sülh Naminə Tərəfdaşlıq" proqramları çərçivəsində xarici ölkələrdə keçirilmiş 200-dək tədbirdə 1300 nəfərədək, Azərbaycanda keçirilmiş 140-dək tədbirdə isə 2000 nəfərədək hərbi qulluqçumuz və mülki heyət iştirak edib.

Hərbçilərimiz regional və beynəlxalq səviyyədə keçirilən müxtəlif təyinatlı taktiki və kompüter dəstəkli irimiqyaslı təlimlərdə mütəmadi olaraq iştirak edirlər. Ötən il ərzində Türkiyə, Almaniya, Rumıniya, Bolqarıstan, Gürcüstan, İordaniya və digər ölkələrdə təşkil olunan təlimlərdə yüzlərlə hərbi qulluqçumuz iştirak edib.

Keçən ilin may ayında İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimində və iyun ayında Qars şəhərində keçirilən Türkiyə-Azərbaycan birgə taktiki təlimində də hərbçilərimiz yüksək nəticələr əldə ediblər. Azərbaycan əsgərinin hazırlıq səviyyəsini xarici ölkələrin yüksək rütbəli hərbçiləri, mütəxəssisləri, müstəqil ekspertləri yüksək qiymətləndirir, müxtəlif ölkələrin ordularının reytinqlərini müəyyən edən beynəlxalq araşdırma mərkəzləri isə öz sənədlərində dərc edirlər.

Rusiya, Belarus, Ukrayna kimi tərəfdaşlarımızla yanaşı, qardaş Türkiyə, o cümlədən İran, Pakistan, İsrail, Cənubi Afrika Respublikası və digər inkişaf etmiş dövlətlərlə qarşılıqlı əməkdaşlıqda hərbi imkanlarımız genişlənir.

Biz müxtəlif ölkələrdən müasir tipli döyüş təyyarələri, döyüş və hərbi nəqliyyat helikopterləri, artilleriya qurğuları, zirehli texnika, rabitə vasitələri, pilotsuz uçuş aparatları alırıq. Eyni zamanda, ordumuz Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsullarla da təchiz olunur.

2016-cı ilin aprel ayında Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və ötən ilin may ayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub. Hər iki tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlıq baxımından Ermənistan ordusundan qat-qat üstün olduğunu əyani şəkildə sübut etdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən tarixi reallığa çevrilən və bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək səviyyəsinə çatan Azərbaycan Ordusu təchizat səviyyəsinə, döyüş hazırlığına, şəxsi heyətinin mənəvi keyfiyyətinə, idarəetmə strukturlarının peşəkarlığına görə dünyanın ən güclü ordularından biridir. Son illər ərzində Azərbaycan Ordusunun siması tamamilə dəyişilib. Bu ordu xalqımızın sevinc, qürur və güvənc yerinə, Ali Baş Komandanının bütün əmrlərini yerinə yetirməyə qadir olan bir orduya çevrilib.

Bu gün Azərbaycan Ordusunun qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**İdeoloji İş və**
**Mənəvi-Psixoloji**
**Təminat İdarəsi**

# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin fəaliyyətinə baxış keçirilib

Ordu quruculuğu müntəzəm prosesdir və müxtəlif istiqamətlərin vəhdəti əsasında həyata keçirilir. Bu istiqamətlərdən biri də ideoloji işin təşkilidir. Ordunun gücünün döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlığın bir-birini tamamlaması müəyyənləşdirilir. İdeoloji iş şəxsi heyətin döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlığın səviyyəsini artırmaq baxımından olduqca gərəklidir. Məhz buna görə də ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin fəaliyyətinin səmərəliliyinin artırılması həmişə diqqət mərkəzində olub. Belə ki, ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər ənənəvi iş üsulu ilə yanaşı, yeni təşəbbüslər də istifadə etməklə daha səmərəli nəticələrə nail olmaq üçün yeni iş metodlarını tətbiq edirlər. Zabitlərin iş üsulunu öyrənmək, ümumiləşdirmək ordu quruculuğunun daha dinamik inkişafında mühüm vasitələrdəndir.



Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissələrində və xüsusi təyinatlı təhsil müəssisələrində ideoloji iş və mənəvi-psixoloji təminata cavabdeh zabitlərin bütün ixtisaslar üzrə fəaliyyətlərinə baxış keçirilib, fəaliyyətlərə baxışın məqsədi şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, şəxsi heyət arasında yarış ruhunun, rəqabətin gücləndirilməsi və asudə vaxtın səmərəli təşkili olub. Baxış aşkarlama üçündür. Aşkar olunanların öyrənilməsi və ümumiləşdirilərək ordu quruculuğuna tətbiq edilməsi həm də bu üsulla təmin olunur. Şəxsi heyət arasında yarış ruhu, bu ruha istinadən rəqabətaparma marağı, məsuliyyəti də tənzimləyir. Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin hazırlıq planına əsasən keçirilən baxışda yekun nəticələr müəyyənləşib. Yekun nəticələrə müvafiq olaraq "ən yaxşı yarış və müsabiqə keçirilən, qabaqcıl təcrübənin təbliği daha yaxşı təşkil edilən" hərbi hissə və müəssisələr müəyyən edilib. Baxışda fərqlənən polkovnik-leytenant Rauf Niyazov, polkovnik-leytenant Rüstəm Məmmədov və mayor Əli Əsgərov həvəsləndirilib.



Bu zabitlərin xidmət etdiyi hərbi hissələrdə zəngin materiallarla təchiz edilmiş ideoloji kabinetlər fəaliyyət göstərir ki, bu da şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində müəyyən təsirə malikdir.

Təbliğat vasitələrinin seçilməsində, tərtib edilməsində və yayılmasında da nəzərəçarpacaq irəliləyişlər mövcuddur və bunlar gələcəkdə daha da təkmilləşdiriləcəkdir.

Həvəsləndirilən zabitlərin gələcəkdə fəaliyyətini yeni iş üsul və metodları ilə daha da təkmilləşdirəcəklərinə inanırıq.

**"Azərbaycan Ordusu"**

# “Vətənimizin müqəddəsliyi yaşam fəlsəfəmizdir”

Ordu bütövlükdə cəmiyyəti qorumaqla dövlətin tərkibində olan ən vacib strukturdur. Ona görə də Azərbaycan Ordusunda şəxsi heyətin təlim və tədrisinə xüsusi önəm verilir və onların təbii imkanlarının üzə çıxması üçün hər cür şərait yaradılır. Şəxsi heyətdə müxtəlif qabiliyyətlərin üzə çıxarılması, möhkəmləndirilməsi, öyrədilənlərin şüurlu surətdə mənimsədilməsi, inkişaf etdirilməsi rəhbərlik tərəfindən diqqətdə saxlanılır.

Bunun üçün "N" hərbi hissəsində də digər hərbi hissələrdə olduğu kimi, şəxsi heyətin vətənpərvər ruhda tərbiyə olunmasına, torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə bu yöndə təbliğatın gücləndirilməsinə, ictimai-siyasi dərslərin keçirilməsinə xüsusi əhəmiyyət verilir.

Kapitan Natiq İsgəndərov söhbət əsnasında bildirdi ki, ordu rəhbərliyinin qarşısında duran başlıca vəzifələrdən biri də şəxsi heyətin milli mənlik şüurunun inkişaf etdirilməsi və onlara vətənpərvərlik hisslərinin aşılanmasından ibarətdir. "Bu məqsədlə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən əsgərlər ilə mütəmadi şəkildə ideoloji iş aparılmasına xüsusi diqqət yetirilir. Ən çətin istiqamətlərdən biri olduğunu nəzərə alaraq bu gün əsgərlərlə mənəvi-psixoloji və ideoloji iş apararkən onlara sistemli şəkildə yanaşmaq lazım olduğunu heç vaxt yaddan çıxarmırıq. Bizim bu istiqamətdə gördüyümüz işlər hərbi sahə ilə yanaşı, əsgərlərin əmək, yaradıcılıq və intellektual potensialının da tam üzə çıxarılıb reallaşması üçün lazımi şəraitin yaradılmasına xidmət etməlidir. Biz də dövlət və ordu rəhbərliyinin qarşımıza qoyduğu bu şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq".

Söhbətimizin bu yerində zabitə orduda xidmət edən hərbi qulluqçuların, əsasən də əsgərlərin ideya-siyasi, mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsində mənəvi-psixoloji və ideoloji işin mahiyyətini nədə görürsünüz? sualı ilə müraciət etdik. Kapitan Natiq İsgəndərova verilən suala zabit Eldəniz İsmayılov cavab olaraq bildirdi ki, hərbi kollektivin işinin mahiyyəti, ilk növbədə, zabit xarakterinin və davranışının təşkilində özünü büruzə verir. “Hər bir zabit çalışdığı kollektivin bir üzvü və tərkib hissəsidir. Bununla yanaşı, hər bir şəxsin ideya-əxlaqi kamilliyini yalnız düzgün təşkil edilmiş kollektiv şəraitdə aşkara çıxarmaq mümkündür. Buna görə də hər bir zabit daim öz əməyinin, savadının, eyni zamanda, dünyagörüşü və xarakterinin təkmilləşdirilməsi qayğısına qalmağa borcludur. Belə ki, biz ayrıca şəxsiyyəti tərbiyə edərkən bütövlükdə kollektivin tərbiyəsi haqqında düşünməliyik. Əgər zabit və əsgərlər arasında qarşılıqlı münasibət düzgün qurulubsa, onda yuxarıda sadalanan vəzifələrin həyata keçirilməsi də çətin olmayacaq.”



Söhbətimiz başa çatdıqdan sonra dərs başlandı. Məşğələnin rəhbəri ilkin olaraq bügünkü mövzunun adını - "Müstəqillik tarixi. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində" elan etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında tarixi məlumat verdi və mövzunu dövlətimizin müasir dövrü ilə bağladı. Dərs prosesi fikir mübadiləsi şəklində aparıldığından bizlərdə maraq doğurdu.

Zabit qeyd etdi ki, Azərbaycanın olduqca əlverişli geosiyasi məkanda, həm də dünyanın super güclərinin barışmaz maraqlarının kəsişdiyi regionda yerləşməsi milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı xarici siyasi strategiyanın hazırlanmasını və tətbiqini tələb edirdi.

İstər 100 il əvvəl, istərsə də müasir dövrdə ölkəmizin beynəlxalq münasibətlərin önəmli iştirakçısına çevrilməsi prosesi olduqca gərgin olub. Müasir dönəmdə məhz ümummilli lider Heydər Əliyevin böyük səyi, müdrikliyi sayəsində Azərbaycan beynəlxalq ictimaiyyətlə uğurlu ünsiyyət quraraq, milli maraqlarının təmin edilməsində əhəmiyyətli addımlar ata bildi.

Zabit Eldəniz İsmayılov dedi ki, hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işləri, apardığı müstəqil xarici siyasəti Azərbaycan Respublikasının rolunun daha da artmasını mümkün edib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regionun lider dövlətinə çevirib və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

Hər kəsə polemikaya qoşulmaq imkanı yaradıldığından əsgər Anar Qasımov da öz fikrini bölüşdü: "Ana sözü ilə qoşa səslənən Vətən bizim üçün həmişə müqəddəsdir. Bizlər Vətənimizi dərin məhəbbətlə sevir və onu inamla qoruyuruq. Müstəqillik bir vətəndaş kimi hər birimiz üçün əzizdir. Hər kəs üzərinə düşən işin öhdəsindən gəlməyə çalışsa, əməli ilə dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə töhfə vermiş olar. Hazırda bir Azərbaycan əsgəri kimi biz sinəmizi Vətənə sipər etmişik. Vətənimizin müqəddəsliyi bizim üçün yaşam fəlsəfəsidir. Azərbaycan əsgərinin adından deyə bilərik ki, bizə tapşırılan mövqeni sayıqlıqla qoruyuruq.”

Əsgərlər İsmət İsmayıllı və Əlixeybər Qənbərov da eyni mahiyyətdən çıxış edərək vurğuladılar ki, vəzifə borclarını vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlıqlarını artırmaqla, intizamlı olmaqla özlərini torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayırlar. “Biz əsgərlər öz Vətəni, torpağı uğrunda döyüşdə düşmənə qarşı mübarizə aparanda yalnız bir şeyi düşünürük - Vətəni, torpağı qorumaq, müdafiə etmək, düşmənə bir addım da olsun, irəli keçməyə imkan verməmək. Həmin anda biz əsgərlərin gözü önündə onun səssi arzuları yox, yalnız milli dövlətçilik maraqları dayanır. Yaxşı bilirik ki, hər şey torpağın üzərindədir. İlk növbədə, bizim arzularımız, istəklərimiz millətimiz, dövlətimiz, elmimiz, mədəniyyətimiz, incəsənətimiz, nəyimiz varsa, hamısı bu torpağın üzərindədir, torpaqdan güc alır. Əgər bu torpaq varsa, yuxarıda sadaladığımız hər şey bizimdir, bizimlədir və bizim olacaq.”

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Məktəblilər Hərbi Dəniz Qüvvələrinin bazasına ekskursiya ediblər

*Bakı şəhəri 2 saylı Texniki humanitar elmləri liseyinin şagirdləri Hərbi Dəniz Qüvvələrinin bazasına ekskursiya ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, burada şagirdlərə hərbi gəmilərin təyinatı, taktiki-texniki xassələri, döyüş qabiliyyəti, eyni zamanda, şəxsi heyətin xidməti, sosial-məişət şəraiti haqqında məlumat verilib, onları maraqlandıran suallar zabit və miçmanlar tərəfindən cavablandırılıb.

Şagirdlər şəxsi heyət qarşısında vətənpərvərlik şeirləri və mahnılarından ibarət konsert proqramı ilə çıxış ediblər.

Sonda xatirə şəkli çəkdirilib.



## Məişət

# "Hər cür şəraitlə təmin olunmuşuq"

*Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraiti, çöl və stasionar şəraitdə yerləşən hərbi hissələrin maddi-texniki təminatı və təchizatı müasir standartlara cavab verir. Bu sahədə işlərin sürətləndirilməsi məqsədilə verilən tövsiyə və tapşırıqların icrası ilə əlaqədar qısa müddət ərzində Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən konkret tədbirlər həyata keçirilib.*

Müasir dönəmdə Azərbaycan Ordusunda hərbi qulluqçuların yataq şəraitlərinin yaxşılaşdırılması məqsədilə köhnə əsgər çarpayıları müasir tipli bir və ikimərtəbəli çarpayılarla, pambıq yataq dəstləri yaylı döşək, sintepon balış və akril ədyallarla, kiçik həcmli dolabçaların isə iki nəfərlik iritutumlu metal dolablarla əvəz olunması həyata keçirilib. İplik əl-üz dəsmalları xovlu əl-üz dəsmalları ilə əvəz edilib, o cümlədən şəxsi heyətin hərbi geyim və əşya əmlakı ilə təminatı normalarına hamam və ayaq dəsmalları da əlavə olunub.



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində bölmədə aparılan islahatlar, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən məqsədyönlü işlərin nəticəsinin şahidi olduq. Əsgər yataqxanasındakı səliqə-sahman göz oxşayırdı. Bu işə cavabdeh əsgərlər Şahalı Məhərrəmov və Şənlik Əkbərovla söhbət etdik.

Əsgər Şahalı Məhərrəmov bildirdi ki, bir Azərbaycan gənci kimi onun da arzusu əsgər olmaq, Vətənə borcunu layiqincə yerinə yetirmək olub. "Hərbi hissəmizin cəbhə bölgəsində yerləşməsinə baxmayaraq, hər cür şəraitlə təmin olunmuşuq. İsti yataqxanamızın, qida və geyim təminatımızın qaydasında olması xidmətimizi xeyli asanlaşdırır. Hər həftə yataq dəstlərimiz yuyulur, təmizlənir daha sonra isə ütülənərək, bölmələrə təhvil verilir. Bu qayğının qarşısında üzərimizə yalnız bir vəzifə düşür - torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaq. Hər birimiz bu vəzifənin öhdəsindən layiqincə gəlib, valideynlərimizin yanına alnıaçıq qayıtmağa çalışırıq".

Hərbi xidmətə Lənkəran rayonundan çağırılan əsgər Şənlik Əkbərov isə bildirdi ki, burada onlar üçün hər cür şərait yaradılıb. "İsti yataq yerimizdən tutmuş qida, geyim və məişət ləvazimatlarına kimi hər şeylə təmin olunmuşuq. Burada yaradılan yüksək məişət şəraiti bizdə ruh yüksəkliyi yaradır. Öhdəmizə düşən tək vəzifə Vətənə sadiq əsgər olmaq, layiqli xidmət etmək və Ali Baş Komandanımızın əmri ilə döyüş meydanında düşmənimizdən şəhidlərin qisasını almaqdır".

Hərbi hissədə yaradılan şəraitlə tanışlıqdan sonra bir daha əmin olduq ki, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğı sayəsində ordumuzun döyüş qabiliyyəti, hərbi hissə və bölmələrin maddi-texniki təminatı, həmçinin şəxsi heyətin sosial-məişət şəraiti olduqca yüksək səviyyədədir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində saxtakarlıq və cinayət hadisələri baş alıb gedir. Bu yaxınlarda Ermənistan ordusu rəhbərliyinin daha bir fırıldağı məlum olub.

Adı hələlik gizli saxlanılan işğalçı ordunun yüksək rütbəli zabiti ilə Məhkəmə Qərarları İcrasının məcburi təmin edilməsi xidmətinin Ağdərə üzrə ərazi bölməsinin rəisi Valeriy Avanesyan əlbir olaraq Rusiya Federasiyasında yaşayan Karen Qalustyana hərbi qeydiyyatı, xidməti və yaşadığı ünvanla əlaqəli saxta arayış veriblər.

Bu cür saxtakarlıqlar kütləvi hal alıb və işğal olunmuş ərazilərdə yaşayan ermənilərin guya çox olduğunu göstərmək məqsədilə edilir.

Saxta arayışlar verilənlərin əksəriyyəti digər ölkələrdə cinayət törətdikdən sonra Dağlıq Qarabağ ərazisinə gələn ermənilərdir.

* * *

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində zabitlərin özbaşınalığı səbəbindən baş verən cinayət hadisələrinin sayı durmadan artır. Bu yaxınlarda işğalçı ordunun bölmələrinin birində nizamnamədənkənar münasibətlər zəminində daha bir cinayət hadisəsi baş verib.

Belə ki, 5-ci taborun Qarlen Sağyan adlı əsgəri zabitin təhqirlərinə dözməyərək ona qarşı güc tətbiq edib və nəticədə aldığı zərbələrdən taqım komandiri hərbi tibb məntəqəsinə yerləşdirilib.

Əsgər hələlik həbs olunmasa da, hadisə ilə bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçuların buraxılışda, yaxud qısamüddətli məzuniyyətdə olarkən müxtəlif cinayətlər törətməsi adi hala çevrilib.

A.Hayko adlı zabit hərbi hissənin əməliyyat növbətçisinə zəng edib, K.Narimanyan soyadlı hərbi qulluqçunun cinayət törətdiyini və rayon polis şöbəsinin əməkdaşları tərəfindən saxlanıldığını deyib. K.Narimanyanın hərbi qulluqçu olduğu aydınlaşdırıldıqdan sonra o, hərbi polisə təhvil verilib.

Cinayət hadisəsinin təfərrüatları ictimaiyyətdən gizlədilsə də, faktla əlaqədar araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində baş verən hadisəni araşdıran müstəntiqin əsl canini gizlətmək məqsədilə saxta cinayət işi ilə başqa bir günahsız hərbi qulluqçunu ittiham etdiyi faktı ortaya çıxıb.

Mardakert hərbi polisindən Vahaq Avenisyan zəng edərək kürd əsilli hərbçi Armen Asiryanın təcili Artaşata məhkəməyə gətirilməsini tələb edib.

Yaxınlarının dediyinə görə, müstəntiq əsl cinayətkarı gizlətmək məqsədilə saxta cinayət işi ilə kürd A.Asiryanı həbs etdirmək istəyir.

Məhkəmə prosesi qapalı keçirilir və faktla bağlı ictimaiyyətə məlumat verilmir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 647
Nüsxə 3950